**Gəncədə fəaliyyət göstərən marketdə aşkarlanan nöqsanlara dair məlumat**

**(6 iyun 2024)**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları tərəfindən Gəncə şəhəri, 2-ci mikrorayon ərazisində fəaliyyət göstərən “Ailə” marketdə yoxlama həyata keçirilib. Yoxlama zamanı marketdə aşkar saxtalaşdırma əlamətləri olan, keyfiyyət və təhlükəsizliyini təsdiq edən sənədlərlə müşayiət edilməyən “Banketnaya Yubiley 10” əmtəə nişanlı alkoqollu içkilər aşkarlanıb. Belə ki, qeyd olunan alkoqollu içkinin kəskin fərqləndiyi, başlıq hissələrinin butulkalara təkrar bərkidildiyi, məhsulların üzərində istehsal tarixlərinin qeyd edilmədiyi müşahidə olunub. Məhsullardan nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına göndərilib. Müayinələr nəticəsində nümunələrdə bir sıra uyğunsuzluqlar aşkarlanıb.

Faktla bağlı məsələyə hüquqi qiymət verilməsi məqsədilə iş üzrə toplanmış materiallar aidiyyatı üzrə göndərilib. Məhsullar saxlanca qoyulub.